Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 218 (1346) 25 noyabr - 26 noyabr 2016-cı il

# QƏDİMLİYİN VƏ MÜASİRLİYİN HARMONİYASI - ŞƏKİ FENOMENİ

(əvvəli ötən saylarımızda)

### *Qoz, fındıq, şabalıd... Bağçılıqda ən gəlirli sahə*

**Rayonda qərzəkli meyvə istehsalının inkişafına da diqqət yetirilir. Şəki rayonunda əhalinin fərdi təsərrüfatlarında mövcud olan 456 ha qoz, 979 ha fındıq və 26 ha şabalıd bağlarında aqrotexniki qulluq işləri aparılmış, qurumuş və məhsul verməyən ağacların yerinə yeni tinglər əkilmişdir.**

Qərzəkli meyvələrin vacib kənd təsərrüfatı məhsulu olması, təbabətdə və şirniyyat istehsalında önəmli rol oynaması, rentabelli olması və sair amillərə görə istehsalının genişləndirilməsinin vacibliyini nəzərə alaraq əhali arasında yeni qərzəkli bağçılıq təsərrüfatlarının yaradılması istiqamətində maarifləndirmə tədbirləri həyata keçirilir və bu sahəhəyə xarici investorların cəlb edilməsi istiqamətində məqsədyönlü iş aparılır. Nazirlər Kabinetinin 2016-cı 9 ayının yekunlarına və qarşıda duran məsələlərə həsr olunan yığıncağında çıxış edən cənab Prezident demişdir: "Bir daha demək istəyirəm ki, bizə valyuta gətirən kənd təsərrüfatı sahələrinin inkişafı lazımdır. Onların arasında fındıqçılığın çox böyük potensialı var. Bizə ən çox valyuta gətirən kənd təsərrüfatı məhsullarından biri fındıqdır. Yeni təkliflər hazırlanır. 40 min hektarda yeni fındıq bağı salınmalıdır. Fındığı yetişdirmək üçün 12 rayon seçilib. İqlimi və torpağı münbit olan bu 12 rayonda fındıqçılıq çox ciddi şəkildə inkişaf etməlidir".

Şəki rayonu ərazisində fındıq bağlarının əkin sahələrinin artırılması məqsədilə Şəki Şəhər İcra Hakimiyyəti başçısının sərəncamı ilə xüsusi qərargah yaradılmış, tədbirlər planı təsdiq edilmişdir. Qərargah üzvlərinin iştirakı ilə yerində baxış keçirməklə 2016-cı ildə rayonda fındıq bağı salınacaq ərazilər müəyyən edilmişdir. Yeni salınacaq fındıq bağları üçün tələb olunan tinglərin əldə edilməsi üçün işlər aparılmışdır. Rayonda yeni fındıq bağları salınması üçün 361 hektar sahədə təmizləmə işləri aparılmışdır ki, onun da 90 hektarı dövlət, 146 hektarı bələdiyyə və 125 hektarı xüsusi mülkiyyətə aiddir. Həmin sahələrdə fındıq əkinləri 8x8 əkin sxemində həyata keçiriləcəkdir. 361 hektar sahədə fındıq bağı salınması üçün 191 nəfər istehsalçı müəyyən edilmişdir.

> **"... Azərbaycan xalqının çox zəngin mədəniyyəti, tarixi vardır. Biz haqlı olaraq öz mədəniyyətimizlə fəxr edirik. Bu gün Azərbaycan dünyada öz mədəniyyəti, musiqisi, tarixi ilə tanınan bir ölkədir. Dünyanın müxtəlif yerlərində Azərbaycan günləri keçirilir. Azərbaycan mədəniyyətinin nə qədər zəngin olduğunu artıq bütün dünya bilir".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***




### *Şəkidə xırdabuynuzlu heyvanların sayı 357 min başı keçir*

Rayonun əsas kənd təsərrüfatı sahələrindən biri hesab olunan heyvandarlıq sahəsində də dinamik inkişaf təmin edilir. Hazırda rayonda 71 033 baş iribuynuzlu, 357 728 baş xırdabuynuzlu, 271 334 baş ev quşları və 5054 arı ailəsi mövcuddur. Mövcud mal-qara arasında baytarlıq və damazlıq tədbirləri ardıcıl davam etdirilir, yem tədarükü işləri uğurla həyata keçirilir. Qeyd etmək lazımdır ki, istər bitkiçilik, istərsə də heyvandarlıq məhsulları istehsalının artırılması ilə yanaşı, emal olunmasının təşkili, yeni emal müəssisələrinin yaradılması, istehsal olunan məhsulların satışına köməklik göstərilməsi, aqroservis xidmətlərinin genişləndirilməsi və s. qarşıda duran həlli vacib məsələlərdəndir.

Rayonda diqqət yetirilən sahələrdən biri də baramaçılıq və tütünçülükdür. Rayonda tütünçülüyün inkişaf etdirilməsi, əhalinin məşğulluğunun təmin olunması, sosial-rifah halının yaxşılaşdırılması və eyni zamanda istehsalçıların marağının müdafiəsi məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Bu sahənin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər əhali arasında tütün əkininə marağı artırmışdır. Belə ki, müddət ərzində rayonda 730 hektar sahədə tütün əkini öhdəliyinə qarşı 785 hektarda əkin aparılmış, öhdəlik 107% yerinə yetirilməklə 1895 nəfərin mövsümü əməklə məşğul olmasına şərait yaradılmışdır. Tütün əkininə dövlət dəstəyi artırılmış və hər hektar tütün əkininə görə istehsalçılara əlavə subsidiya verilməsi qərara alınmışdır. Hazırda rayonda tütün sahələrindən məhsul yığılır. Statistik məlumatlara əsasən artıq rayonda 2074 ton tütün istehsal olunub ki, bu da ötən ilin müvafiq dövründən 524 ton çoxdur.

Şəkidə ipəkçiliyin inkişafı istiqamətində də müvafiq tədbirlər həyata keçirilir. Hazırda rayonda 94,0 hektar sahədə bar verən toxmaçar bağı mövcuddur. Erkən yazdan etibarən toxmacar bağlarında aqrotexniki qulluq və təmir işləri aparılmış, barama yetişdirəcək kümdarlar müəyyən edilmiş, kümxanalarda hazırlıq işləri aparılmışdır. İstehsal olunan baramanın alış qiymətinə baxılmış və 1 kq yaş baramanın alış qiyməti 8 manat müəyyən edilmişdir. 2016-cı ildə rayonda 8,5 ton barama istehsalı proqnozlaşdırılmış və buna nail olunması üçün bütün zəruri tədbirlər görülmüşdür. Barama mövsümü ərzində rayonda 9751 kq barama istehsal olunmuşdur ki, bu da proqnozun 115% yerinə yetirilməsi deməkdir.

İpəkçiliyin yem bazasının genişləndirilməsi məqsədilə rayonda yeni toxmaçar bağlarının salınması üçün yerlər müəyyən edilir, toxmacar tingi yetişdirilməsinə diqqət artırılır. Carı ilin payız mövsümündə 100 min ədəddən çox tut tinginin əkilməsi nəzərdə tutulur.

### *Çoxistiqamətli quruculuq tədbirləri*

**2016-cı ilin 9 ayında təsdiq edilmiş titul siyahısına əsasən Şəkidə yenidənqurma, tikinti-quraşdırma işləri davam etdirilmiş, 13 küçədə abadlıq işləri aparılmışdır. 15 küçədə yolların əsaslı təmiri, 12 ədəd çoxmənzilli yaşayış binasında əsaslı təmir, həyətlərində isə abadlıq işləri aparılmışdır. İlin sonunadək daha 5 küçədə abadlıq işlərinin aparılması və təmir işlərinin yerinə yetirilməsi nəzərdə tutulur.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ